Funded by the European Union

2022-2025-ci illərdə Azərbaycanda Aİ-nın Strateji Kommunikasiyası



İcra müddəti: 04.03.2022 - 02.03.2027

ŞT ölkələri:
Azerbaijan

Aİ-nin maliyyə yardımı: € 1 981 890

Ümumi büdcə: € 1 981 890

İcraçı təşkilat(lar):
Commwithus SA

Sosial media hesablarına keçidlər:
facebook.com/EUDelegationtoAzerbaijan,
instagram.com/eudelegation_az/,
youtube.com/c/EUDelegationtoAzerbaijan

Internet səhifəsi: eu4azerbaijan.eu

Layihənin təsviri:

Ümumi məqsəd Azərbaycanda bütün vətəndaşların Aİ və onun fəaliyyəti haqqında məlumatlılığını artırmaq və onun daha yaxşı anlaşılmasını təmin etmək, Avropa İttifaqının regional və ikitərəfli dəstək və əməkdaşlıq proqramları vasitəsilə ictimai rəyin yaxşılaşdırılmasına, eləcə də Avropa siyasətlərinin və onların təsirinin daha yaxşı başa düşülməsinə töhfə verməkdir. Müqavilənin məqsədi 2022-2025-ci illər üçün yenilənmiş ümumi kommunikasiya strategiyası və Aİ-nin Azərbaycana dəstəyinə əsaslanan kampaniya fəaliyyətləri də daxil olmaqla, müsbət və təsirli kommunikasiya yanaşmasının hazırlanması və həyata keçirilməsidir.
Ümumi yanaşma kommunikasiya kampaniyalarının, ictimai tədbirlərin həyata keçirilməsini, həmçinin Aİ tərəfindən maliyyələşdirilən layihələrə ümumi kommunikasiya dəstəyinin göstərilməsini və onlarla əlaqəni əhatə edəcək. Layihə fəaliyyətləri təkcə Bakıda deyil, bütün Azərbaycanda həyata keçirilməlidir. Layihə tədbirləri, müvafiq hallarda, gəncləri, qadınları, əhalinin azlıq təşkil edən və həssas qruplarını əhatə edəcəkdir. Layihə aşağıdakı ictimai tədbirləri təşkil edəcək və onlarda iştirak edəcək: Avropa Şəhərciyi, Aİ Günləri, Təhsil Sərgiləri, Fotosərgi, Aİ Gənclər müsabiqəsi.

Gözlənilən nəticələr:

1) Azərbaycanda Aİ tərəfindən maliyyələşdirilən layihələrin/proqramların nailiyyətlərini əks etdirmək üçün kommunikasiya strategiyasının və fəaliyyət planının hazırlanması və həyata keçirilməsi;
2) Avropa Şəhərciyi, Aİ Günləri tədbirləri, Erasmus/Təhsil sahəsində tədbirlər, Foto sərgilər, Gənclər üçün yarışmalar təşkil etmək
3) Aİ tərəfindən dəstəklənən təşəbbüslərin/Aİ-Azərbaycan əməkdaşlığının (məsələn, iqtisadi inkişaf/ticarət, iş yerlərinin yaradılması, təhsil) birbaşa faydaları ilə bağlı ictimaiyyət arasında məlumatlandırmanın artırılması
4) Azərbaycanda Aİ tərəfindən maliyyələşdirilən layihələrin nailiyyətlərini əks etdirmək üçün www.eu4azerbaijan.eu internet səhifəsini və onunla əlaqəli alətləri işlək vəziyyətdə saxlamaq və yeniləmək
5) Aİ tərəfindən maliyyələşdirilən layihələrin kommunikasiya işlərini dəstəkləmək üçün təlimlər keçirmək və bilik mübadiləsini təmin etmək.